

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 155 (21.307)

11 avqust 2015-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da Belarus Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Nikolay Patskeviçi diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul edib.

Səfir Nikolay Patskeviç Belarus-Azərbaycan münasibətlərinə toxunaraq bu münasibətlərin inkişaf etdirilməsi və möhkəmləndirilməsi işinə verdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. O, Azərbaycan və Belarus prezidentlərinin ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsi istiqamətində qarşıya qoyduqları vəzifələrin uğurla icra olunduğunu dedi.

Prezident İlham Əliyev Nikolay Patskeviçin səfirlik fəaliyyəti dövründə ikitərəfli münasibətlərin inkişaf etdirilməsi işinə verdiyi töhfəni yüksək qiymətləndirdi. Azərbaycan Prezidenti əlaqələrimizin daha da genişləndirilməsi ilə bağlı dövlət başçıları tərəfindən müəyyən edilmiş vəzifələrin uğurla həyata keçirilməsindən məmnunluğunu bildirdi. Dövlətimizin başçısı Belarus-Azərbaycan əlaqələrinin dostluq münasibətləri əsasında inkişaf etdiyini vurğuladı. İkitərəfli münasibətlərimizin bundan sonra da uğurla inkişaf etdiriləcəyinə əminliyi ifadə edən Prezident İlham Əliyev Nikolay Patskeviçə gələcək fəaliyyətində uğurlar arzuladı.



## Naxçıvanın abad şəhərə çevrilməsi insanların rahatlığını təmin edir

***“2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram”ın uğurlu icrası muxtar respublika paytaxtında və ona bağlı qəsəbə və kəndlərdə infrastruktur təminatını daha da yaxşılaşdırır, yeni binalar inşa edilir, mövcud binalar əsaslı təmir olunur, yollar ən müasir standartlara uyğun olaraq yenidən qurulur. Adıçəkilən proqram çərçivəsində həyata keçirilən tədbirlər ictimaiyyətdə böyük ruh yüksəkliyi yaradır və hər kəs həyata keçirilən quruculuq, abadlıq işlərinə, Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafına öz töhfəsini verməyə çalışır.***

Proqramın icrası istiqamətində görülən işlərin bir hissəsini də abadlıq tədbirləri təşkil edir. Belə ki, hazırda Naxçıvan şəhərinin bir neçə ünvanında abadlıq işləri öz miqyası və əhatəliliyi ilə diqqəti çəkir. Hazırda şəhərin Zərifə Əliyeva küçəsində genişmiqyaslı abadlıq işləri aparılır. Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçıları tərəfindən həyata keçirilən abadlıq tədbirlərinə 80 işçi və çox sayda texnika cəlb edilib. İş icraçısı Əhməd Abdullayevlə söhbətimiz zamanı bildirdi ki, küçəni əhatə edən yollara asfalt örtüyün salınması üçün hazırlıq işləri görülür. Hazırda küçədə evlərin və həyətlərin hasarlarının travertin üzlük lövhələrlə üzlənməsi, qapıların dəyişdirilməsi, yenidən qurulan hasarların milli ornamentlərlə bəzədilməsi işləri gedir. İş icraçısı onu da bildirdi ki, həyata keçirilən tədbirlər bunlarla məhdudlaşmayacaq. Görkəmli akademikin adını daşıyan küçədə kommunikasiya xətləri dəyişdiriləcək və yer altına salınacaq, küçədə müasir işıqlandırma sistemi qurulacaq, yol kənarlarında piyadaların rahat gediş-gəlişi üçün səkilər salınacaq, kilid daşlar düzüləcək. Beləcə, Zərifə Əliyeva küçəsi şəhərimizin ən gözəl ünvanlarından birinə çevriləcək.





Görülən işlər barədə iş icraçısı ilə söhbət zamanı bu küçənin sakinlərindən Azər Məmmədov da ürək sözlərini bizimlə bölüşmək istədi. O qeyd etdi ki, küçə Naxçıvan şəhərinin kənarında yerləşdiyindən sovetlər dövründə diqqətdən kənarda qalıb və bu ünvana bir o qədər də diqqət yetirilməyib. Ancaq son illərdə yaşadığı məhəllənin problemləri mərhələ-mərhələ öz həllini tapıb. Bu küçə şəhəri elektrik enerjisi ilə təmin edən əsas enerji qovşağının yanında yerləşsə də, əvvəllər elektrik enerjisi sarıdan məhəllə sakinləri çox əziyyət çəkiblər. Su, mavi yanacaqla təminat da o qədər yaxşı olmayıb. Ancaq indi bu çətinliklər arxada qalıb və məhəllədə görülən işlər keyfiyyətcə yeni mərhələyə adlayıb. Bu, onu bir sakin kimi çox sevindirir və sakinlərin rahat yaşaması üçün görülən bu işlərə görə dövlətimizə minnətdardır.

Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə proqramın icrasında qazanılan nailiyyətlərdən biri də vaxtilə şəhərin ən baxımsız yerlərindən olan İslam Səfərli küçəsinin müasir görünüşə qovuşmasıdır. “Dizayn İnşaat” Məhdud Məsuliyyətli Cəmiyyətinin əməkdaşları tərəfindən abad küçə ünvanına qovuşan bu məkan buraya yolu düşənləri səliqə-sahmanı, möhtəşəm və nəfis tərtibatlı hasar və səkiləri, qapıları, pilləkənləri ilə heyrətə gətirir. Bu küçənin sakinlərindən 75 yaşlı Arif Heydərov görülən bu işləri dövlətimizin öz vətəndaşlarının rahat yaşamasına verdiyi önəmin təcəssümü kimi qiymətləndirir və deyir ki, blokadada olan bir diyarın paytaxtında yamyaşıl parkların və xiyabanların, rahat yolların, işıqlı, geniş küçələrin, bir-birindən yaraşıqlı binaların olması qürurverici olduğu qədər də inanılmazdır. Həqiqətən də, şəhərə gələn bir qonaqla söhbət edəndə bir çoxlarının Naxçıvanın blokadada olmasına inanası gəlmir. Ancaq mən hər dəfə deyirəm ki, bəli, Naxçıvan coğrafi cəhətdən blokadadadır, ancaq insanların arzularını, istəklərini, yurd sevgisini, yaşamaq, qurub-yaratmaq əzmini heç kim mühasirəyə sala bilməz. Şəhərimizdə gördüyünüz bütün bu gözəl mənzərələr məhz bu arzu və istəyin, əzmkarlığın nəticəsidir. Bu şəhərdə yaşamağa dəyər.

Naxçıvan Muxtar Respublikası çiçəklənir, inkişaf edir. Naxçıvan şəhərinin bir neçə ünvanının timsalında təqdim olunan inkişaf, tərəqqi bu fikri söyləməyə əsas verir. Onu da deməyə əsas verir ki, muxtar respublikanın iqtisadi imkanları genişləndikcə bu, hər bir şəhərin, qəsəbənin, kəndin, həmçinin insanların gündəlik həyatında özünü büruzə verir. Uğurlu nəticələr, eyni zamanda qarşıya qoyulan hədəflər yeni proqramların qəbulunu zərurətə çevirir. Qəbul olunan 2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə proqramın uğurlu icrasında da əsas məqsəd Naxçıvan şəhərinin hərtərəfli inkişafını sürətləndirmək, əhalinin sosial müdafiəsini yüksək səviyyədə təmin etməkdən ibarətdir.

**Səbuhi HÜSEYNOV**

## Cəmşid Naxçıvanskinin 120 illik yubileyi qeyd olunub



***Naxçıvan Qarnizonunun Zabitlər Evində Cəmşid Naxçıvanskinin 120 illik yubileyi münasibətilə tədbir keçirilib.***

Əlahiddə Ümumqoşun Ordunun zabiti, polkovnik Mirqiyas Rüstəmov tədbirdə çıxış edərək bildirib ki, Azərbaycanda ilk milli diviziyanın yaradıcısı olan Cəmşid Naxçıvanskinin adı ümummilli liderimiz Heydər Əliyevin sayəsində hərb tariximizdə əbədiləşib. 1971-ci ildə Moskvanın əsassız cəhdlərinə baxmayaraq, Bakı şəhərində respublika hərbi təyinatlı orta internat məktəbi yaradılıb və Cəmşid Naxçıvanskinin adı bu məktəbə verilib. Sonralar həmin məktəb hərbi liseyə çevrilib. Böyük sərkərdənin adına indi ölkəmizdə hərbi lisey, ev-muzeyi və tam orta məktəb var.

Qeyd olunub ki, Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2 aprel 2015-ci il tarixdə imzaladığı Sərəncamda deyilir: “Cəmşid Naxçıvanski bacarıqlı sərkərdə kimi şərəfli döyüş yolu keçmiş və Azərbaycanın müstəqilliyi uğrunda aparılan mübarizələrdə göstərdiyi şücaətlərlə milli hərb sənəti tarixinə dəyərli töhfələr vermişdir. Onun ölkədə yüksək ixtisaslı hərbçi kadr hazırlığı sahəsində zəngin fəaliyyəti təqdirəlayiqdir. Cəmşid Naxçıvanski 1930-cu illərin ağır repressiyalarına məruz qalmış və totalitarizmin qurbanına çevrilmiş vətənpərvər şəxsiyyətlərdəndir”.

Vurğulanıb ki, böyük sərkərdənin yubileyi doğulub boya-başa çatdığı Naxçıvanda da geniş qeyd edilir. Belə ki, Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il aprelin 9-da imzaladığı Sərəncamla Tədbirlər Planı təsdiq edilib. Həmin plana əsasən, muxtar respublikada hərb tariximizin görkəmli simalarından olan Cəmşid Naxçıvanskinin 120 illik yubiley tədbirləri keçirilir.

Tədbirdə çıxış edən “N” hərbi hissənin hərbi qulluqçusu, kiçik çavuş Asim Əbilov, Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli görkəmli sərkərdənin həyat yoluna nəzər salaraq bildiriblər ki, Cəmşid xan Naxçıvanski Azərbaycanın hərb tarixində özünəməxsus yeri olan, iki dəfə haqqında ölüm hökmü çıxarılan və böyük mənəvi sarsıntılara məruz qalan, amma bütün bunların qarşısında sınmayan bir şəxsiyyət idi. Buna görə də Kəngərli tayfasının onlarla görkəmli nümayəndəsi arasında Cəmşid xan Naxçıvanskinin həyatı və fəaliyyəti maraqlı məqamları ilə seçilir. General Cəmşid Naxçıvanskinin adı hərb tariximizin səhifələrinə qızıl hərflərlə yazılıb. Onun keçdiyi ömür yolu bugünkü və gələcək nəsillərə örnəkdir.

## Avqustun 18-dən növbəti əmək yarmarkalarına start veriləcək

***İnsanların məşğulluq problemlərinin həlli istiqamətində son illər muxtar respublikada geniş layihələr həyata keçirilir.***

Həyata keçirilən tədbirlər içərisində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” mühüm əhəmiyyət daşıyır. Proqramın əsas məqsədi muxtar respublikada əhalinin məşğulluğunun təmin edilməsinə, əmək bazarının dəyişən tələblərinə uyğun müasir peşə hazırlığı kurslarının təşkilinə köməklik göstərməkdən ibarətdir. Proqramdan irəli gələn vəzifələrin həyata keçirilməsində Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin üzərinə mühüm vəzifələr düşür. Xidmətdən verilən məlumata görə, 1 yanvar 2014-cü il tarixdən 1 avqust 2015-ci il tarixədək muxtar respublikada 4385 işaxtaran öz peşə və ixtisaslarına uyğun münasib işlə təmin olunub.

Məşğulluq problemlərinin həll olunmasında ildə 4 dəfə təşkil edilən əmək yarmarkalarının da böyük rolu var. Bu məqsədlə muxtar respublikada fəaliyyət göstərən məşğulluq orqanları tərəfindən əvvəlcədən işəgötürənlərdən boş iş yerləri haqqında məlumatlar toplanılır, bu məlumatlar əmək yarmarkalarında işaxtaranlara təqdim edilir. Qeyd edək ki, 2015-ci ilin birinci yarısında muxtar respublikada məşğulluq xidməti orqanlarına müraciət etmiş 1391 nəfər işlə təmin edilib.

Növbəti əmək yarmarkalarının keçirilməsinə isə avqust ayının 18-dən başlanılacaq. İlk əmək yarmarkası həmin gün Sədərək rayonunda təşkil olunacaq. Kəngərli rayonunda işaxtaranlar əmək yarmarkasına avqustun 19-da müraciət edə biləcəklər. Şahbuz rayonunda keçiriləcək əmək yarmarkası isə ondan bir gün sonra – avqustun 20-də təşkil ediləcək. Culfalı işaxtaran vətəndaşlar avqust ayının 21-də əmək yarmarkasında iştirak edəcəklər. Ordubadlılar isə bu tədbirə avqustun 25-də qatılacaqlar. Analoji tədbir Babək rayonunda avqustun 26-da, Şərur rayonunda isə avqustun 27-də baş tutacaq. Naxçıvan şəhərindəki işaxtaranlar isə vakant iş yerləri haqqındakı məlumatlarla avqustun 28-də “Gənclik” Mərkəzində təşkil olunacaq əmək yarmarkasında tanış ola biləcəklər.

Qeyd edək ki, əmək yarmarkalarının təşkil olunması Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti və onun rayon mərkəzləri tərəfindən həyata keçirilir.

**Xəbərlər şöbəsi**

# Naxçıvanda kənd təsərrüfatının inkişafı aqrar-sənaye kompleksinin yeni mərhələyə keçidini şərtləndirmişdir

*Bu gün muxtar respublika iqtisadiyyatında böyük çəkiyə malik olan kənd təsərrüfatı sürətlə inkişaf edir. Dövlət tərəfindən aqrar sahədə müasir infrastrukturun yaradılması, kənd təsərrüfatına dövlət qayğısının artırılması, aqrolizinq xidmətinin genişləndirilməsi, eləcə də kreditlərin verilməsinin sürətləndirilməsi aqrar sahənin inkişafına müsbət təsirini göstərir.*

Ümumiyyətlə, ölkənin artan inkişaf göstəriciləri arasında kənd təsərrüfatının xüsusi çəkisinin olması təsadüfi deyil. Dövlət ərzağa olan daxili tələbatını, əsasən, öz potensialı və imkanları hesabına ödəyə bilməsi üçün regionlarda infrastruktur sahələrinin yaradılması və kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində mühüm islahatlar reallaşdırıb və bu proses davam edir. 2015-ci il ölkəmizdə, eləcə də muxtar respublikamızda "Kənd təsərrüfatı ili" elan olunub. Şübhəsiz, Azərbaycanın və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının müasir sosial-iqtisadi inkişaf səviyyəsində kənd təsərrüfatı da yeni bir inkişaf mərhələsinə qədəm qoyub. Bu baxımdan Azərbaycanda, o cümlədən Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına, ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə aqrar sektorun inkişafına xüsusi diqqət yetirilir. Etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərti, dövlətin iqtisadi təhlükəsizliyinin əsas amillərindəndir. Naxçıvan Muxtar Respublikasında da ərzaq təhlükəsizliyinin təmin olunmasına ciddi diqqət yetirilir və bu sahədə mühüm nailiyyətlər qazanılmışdır.

Əldə olunmuş nailiyyətlərin əsas amillərindən biri muxtar respublikada sahibkarlığın inkişafına geniş meydan verilməsi, bu sahəyə dövlət yardımının ilbəil artırılması, sahibkarların təcrübəsinin daha da zənginləşdirilməsi istiqamətində müvafiq tədbirlərin reallaşdırılmasıdır. Regionda kənd təsərrüfatının inkişafı ilə bağlı əldə olunmuş müvəffəqiyyətlər istər ərzaq təhlükəsizliyinin təmin olunmasında, istərsə də emal müəssisələrinin xammalla təchizatında mühüm rol oynayır. Bu cəhətdən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" mühüm əhəmiyyət daşıyır.

Dövlət proqramı kənd təsərrüfatı məhsulları istehsalının əsas istiqamətlərinin müəyyənləşdirilməsinə, əhalinin təhlükəsiz və keyfiyyətli ərzaqla təmin edilməsinə, idxaldan asılılığın aradan qaldırılmasına, sahibkarlığın inkişafına stimul vermişdir.

Muxtar respublikada ərzağa olan tələbatın, əsasən, yerli istehsal hesabına ödənilməsi üçün istehsal sahələrinin yaradılması və kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində mühüm islahatlar həyata keçirilir və bu proses davam edir.

Aparılan məqsədyönlü siyasət aqrar sektorun inkişafına, nəticə etibarilə, istehsalın artmasına, məhsul bolluğunun yaranmasına səbəb olmuşdur. 2015-ci ilin 6 ayı ərzində muxtar respublikada 110 milyon 870 min manat həcmində kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur.

Muxtar respublikada kənd təsərrüfatının aparıcı sahələrindən biri əkinçilikdir. Regionun torpaq mülkiyyətçiləri bu sahədə zəngin təcrübəyə malikdirlər. Torpaq mülkiyyətçilərinə göstərilən hərtərəfli dövlət qayğısı, eləcə də iqlim və coğrafi şərait əkinçilikdə uğurlar qazanılmasını təmin etmişdir. Elə bu səbəbdəndir ki, 2015-ci ilin məhsulu üçün muxtar respublikada 61 min 414 hektar sahədə əkin aparılmışdır ki, bu da 2014-cü ilin məhsulu üçün əkilmiş sahədən 585 hektar çoxdur.

Strateji ərzaq məhsulu olan taxılçılığa mühüm əhəmiyyətli sahə kimi yanaşılması nəticəsində taxıl istehsalı artan templə inkişaf etdirilir. Tələbatın daxili imkanlar hesabına ödənilməsi əsas tutularaq taxıl əkini sahələri ilbəil genişləndirilir. 2015-ci ilin məhsulu üçün 36237 hektar sahədə taxıl əkilmişdir ki, bunun da 30166 hektarı payızlıq, 6071 hektarı isə yazlıq taxıldır. Bir il öncəyə nisbətdə taxıl əkini sahələrinin həcmi 487,3 hektar artmışdır. Taxıl zəmilərinin 26746 hektarında buğda, 9491 hektarında isə arpa əkilmişdir. Muxtar respublikada taxılçılığın inkişafı, istehsalın artırılması bu məhsulların saxlanılması üçün anbarların qurulmasını zərurətə çevirmişdir. Hazırda muxtar respublikada uzunmüddətli taxıl anbarlarının tutumu 27 min tona, qısamüddətli taxıl anbarlarının tutumu 43 min 380 tona, taxıl emalı müəssisələrinin sayı 17-yə çatdırılmışdır.

Muxtar respublikada taxılçılıqla yanaşı, kartofçuluğun inkişafına da ciddi diqqət yetirilir. Son illərə qədər regionda bu məhsula olan tələbat, əsasən, idxal hesabına ödənilirdi. İkinci çörək sayılan kartofa olan tələbatın yerli istehsal hesabına ödənilməsi məqsədilə görülən işlər bu cəhətdən diqqəti cəlb edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nda torpaqlardan səmərəli istifadə olunması, investisiyaların cəlb edilməsi, daxili bazarın qorunması, tələbata uyğun keyfiyyətli məhsul istehsalının dəstəklənməsi kimi zəruri tədbirlərin görülməsi məsələləri qarşıya qoyulmuşdur. Stimullaşdırıcı təsirə malik olan bu tədbirlərin nəticəsidir ki, kartof əkini sahələri ildənilə genişləndirilir. Daxili bazarın kartofla təminatında idxaldan asılılığın azaldılması, tələbatın yerli istehsal hesabına ödənilməsini təmin etmək məqsədilə muxtar respublikada əlverişli torpaq sahələri ayrılmışdır. 2015-ci ildə 2967 hektar sahədə kartof əkini aparılmışdır ki, bu da 2014-cü ildə əkilmiş sahədən 5 hektar çoxdur.

Bu rəqəmlər onu göstərir ki, aqrar sektorda məhsul istehsalı artdıqca idxal azalır. Bu sektorda həyata keçirilən siyasətin başlıca məqsədi də budur – idxaldan asılılığı azaltmaq, ixrac potensialını artırmaqla ərzaq təhlükəsizliyini təmin etmək.

Aqrar sektorun inkişafında mühüm vəzifələrdən biri soyuducu anbarların yaradılmasıdır. Muxtar respublikada soyuducu anbarların işə salınması yerli meyvə-tərəvəzlərin ilboyu bazarlara çıxarılmasına imkan verir. Soyuducu anbar normal temperaturda pozulmağa meyilli olan qidaların aşağı temperaturda mühafizə edilməsinə imkan verən infrastrukturdur. Əhalinin ərzaq məhsullarına olan tələbatının ilboyu ödənilməsinin təmin edilməsi, kənd təsərrüfatı məhsulları istehsalçılarının fəaliyyətinin stimullaşdırılması, məhsulların tədarükü, saxlanması və satışı infrastrukturunun yaradılması məqsədilə yerli investisiyalar əsasında soyuducu anbarların sayı 20-yə, ümumi tutumu 12 min 250 tona çatdırılmışdır.

Qeyd edək ki, artıq meyvə-tərəvəz məhsullarının tədarükü, saxlanılması və satışı üzrə müasir soyuducu anbar komplekslərində meyvə və tərəvəzin qəbuluna başlanılmışdır. 1 iyul 2015-ci il tarixdən ötən dövr ərzində muxtar respublika ərazisində fəaliyyət göstərən soyuducu anbarlara 500 tona yaxın məhsul tədarük olunmuşdur.

Əhalinin ərzaq məhsulları ilə etibarlı təminatında başlıca rol oynayan kənd təsərrüfatında 10 yeni və 1 icrası davam etdirilən olmaqla, cəmi 11 layihənin maliyyələşdirilməsinə 1.109.100 manat yönəldilmişdir.

Əhalinin heyvandarlıq məhsulları ilə etibarlı təminatı üçün kənd təsərrüfatının vacib sahəsi olan heyvandarlığa xüsusi diqqət yetirilmiş, heyvanların baş sayında və heyvandarlıq məhsulları istehsalında artıma nail olunmuşdur. 2015-ci ilin altı ayı ərzində heyvandarlığın inkişafına Sahibkarlığa Kömək Fondu tərəfindən 456,1 min manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir. "Müseyib" kəndli fermer təsərrüfatında 50 baş iribuynuzlu və 400 baş xırdabuynuzlu olan ikinci bölmənin yaradılması, "Arbatan Şirkəti" MMC tərəfindən təsərrüfatın fəaliyyətinin genişləndirilməsi məqsədilə ümumi sahəsi 550 kv.m olan tövlənin tikintisi, "Havuş" MMC tərəfindən 1000 baş keçicilik təsərrüfatının, fiziki şəxs Hüseyn Əliyev tərəfindən 25 baş iribuynuzlu və 100 baş xırdabuynuzlu heyvanın alınması, fiziki şəxs Azər Şahverdiyev tərəfindən 30 baş iribuynuzlu heyvandarlıq təsərrüfatının, fiziki şəxs Mahmud İbrahimov tərəfindən 600 baş xırdabuynuzlu heyvandarlıq təsərrüfatının ikinci bölməsinin, fiziki şəxs Təbriz Kazımov tərəfindən 200 baş xırdabuynuzlu heyvandarlıq təsərrüfatının ikinci bölməsinin, fiziki şəxs Muxtar İsmayılov tərəfindən 7 baş iribuynuzlu heyvandarlıq təsərrüfatının yaradılması davam etdirilir.

Maldarlıqla yanaşı, quşçuluğun inkişaf etdirilməsi də diqqətdən kənarda qalmamışdır. Daxili bazarda quş ətinə və yumurtaya olan tələbatı yerli istehsal hesabına ödəmək üçün 2000-ci ildən 2015-ci ilin ötən dövrü ərzində sahibkarlıq subyektlərinə 7.025.500 manat kredit verilmişdir. Şərur rayonundakı Mahmudkənddə fiziki şəxs Vəli Qasımov tərəfindən istehsal gücü ildə 1500 baş olan fərdi quşçuluq təsərrüfatının və Culfa rayonunun Kırna kəndində "Kırna" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən istehsal gücü 1 saatda 4500 ədəd quş kəsimi sahəsinin yaradılması istiqamətində işlər davam etdirilir.

Regionlar üzrə yerli resurslar və iqlim şəraiti nəzərə alınmaqla təbii sərvətlərdən səmərəli istifadə edilməsi, kəndlərdə dayanıqlı istehsal sahələrinin yaradılması və məşğulluq səviyyəsinin yüksəldilməsi məqsədilə muxtar respublikanın rayon və kəndlərində 672 emal sənayesi, kənd təsərrüfatı təyinatlı istehsal və xidmət sahələri yaradılmışdır.

Muxtar respublikada kənd təsərrüfatı və ərzaq məhsulları istehsalçılarının məhsullarının özləri tərəfindən satışa çıxarılması və əhalinin daha ucuz qiymətlərlə kənd təsərrüfatı məhsulları ilə təmin olunması məqsədilə Naxçıvan şəhərində həftənin şənbə və bazar günləri kənd təsərrüfatı məhsullarının satışı yarmarkalarının keçirilməsi davam etdirilir.

Meyvə-tərəvəz və digər ərzaq məhsullarının istehsalında artıma nail olunması üçün emal sənayesinin inkişafı ilə bağlı tədbirlər müəyyənləşdirilmişdir. Qeyd olunanlarla yanaşı, kənd təsərrüfatı məhsullarının ixracını artırmaq, xarici bazarlarda rəqabətqabiliyyətli məhsul satmaq üçün məhsulun çeşidlənməsinə, qablaşdırılmasına, saxlanmasına, istehsalına və ixracına stimul yaradan digər tədbirlərin həyata keçirilməsi davam etdirilir.

***Bütün bunlar aqrar sektorun sürətli inkişafını təmin etməklə yanaşı, ölkəmizdə kənd təsərrüfatı məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsini stimullaşdırmışdır. Aqrar sektora göstərilən diqqət onun muxtar respublika iqtisadiyyatında ümumi payının artmasına və əsas gəlirli sahələrdən birinə çevrilməsinə səbəb olmuşdur.***

*Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin mətbuat xidməti*

***Müəyyən olunmuş iqtisadi inkişaf strategiyasının uğurlu davamının məntiqi nəticəsidir ki, ölkəmizin ayrı-ayrı regionlarında olduğu kimi, muxtar respublikamızda da irimiqyaslı layihələr reallaşdırılır, genişmiqyaslı quruculuq tədbirləri həyata keçirilir.***

*İstehsal müəssisələri*

## "Gəmiqaya Beton Məmulatları" Məhdud Məsuliyyətli Cəmiyyətində keyfiyyətli inşaat materialları istehsal olunur



Keçmiş Sovetlər Birliyinin yüksək inkişaf mərhələlərindən hesab olunan 1989-cu ildə tikinti sektorunda bir ay ərzində istifadə olunan beton qarışığı müasir dövrümüzdə bir gün ərzində inşaat işlərinə sərf olunmaqdadır. Təbii ki, bu da tikinti-quraşdırma işlərinin sürətlə aparılmasına rəvac verir. İnşaat işlərinin vaxtında və keyfiyyətlə aparılmasında beton qarışığı istehsal edən müəssisələr mühüm rol oynayır. Odur ki, muxtar respublikada beton qarışığı istehsal edən müəssisələrin yaradılması da diqqət mərkəzində saxlanılır.

Daxili bazarı tələbata uyğun keyfiyyətli tikinti materialları ilə təmin edən müəssisələrin biri də 2005-ci ildən fəaliyyətə başlayan "Gəmiqaya Beton Məmulatları" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Babək rayonunun Qoşadizə kəndi yaxınlığında, Naxçıvançayın sahilində yerləşən müəssisə son illər muxtar respublikamızda həyata keçirilən genişmiqyaslı quruculuq tədbirləri nəticəsində yerli tikinti materiallarına olan tələbatın ödənilməsi zərurətindən yaradılıb. Müəssisə istifadəyə veriləndək muxtar respublikamızda aparılan tikinti işləri üçün lazım olan inşaat materiallarından beton primitiv üsullarla hazırlanırdı. Həmçinin quruculuq obyektlərində istifadə olunan kilid daş, dekorativ kərpic və digər beton məmulatları qonşu ölkələrdən gətirilirdi. Bu müəssisənin işə salınması ilə həmin problemlər aradan qaldırılıb. Müəssisədə Türkiyədən alınmış müasir texnoloji avadanlıqlar quraşdırılıb, istehsal gücü saatda 50 kubmetr olan qum-çınqıl karxanası, 60 kubmetr olan beton zavodu və 35 kvadratmetr olan dekorativ daşlar istehsalı sexi fəaliyyətə başlayıb.

Müəssisədə yeni layihə həyata keçirilib, beton boru istehsalı sahəsi yaradılıb. 2012-ci ilin avqust ayından fəaliyyətə başlayan sexdə müasir texnoloji avadanlıqlar quraşdırılıb. İstehsal gücü saatda 10 ədəd beton boru və beton daban olan müəssisədə istehsal prosesi avtomatlaşdırılıb, keyfiyyətli məhsul istehsalına nail olunub. Yeni istehsal sahəsində divarının qalınlığı 8, hündürlüyü 60 santimetr, diametri 600-800-1000 millimetr olan beton borular istehsal edilir. Bu istehsal sahəsinin yaradılması tikinti obyektlərində, o cümlədən muxtar respublikamızda su-kanalizasiya sistemlərinin yenilənməsi ilə əlaqədar keyfiyyətli beton borulara olan tələbatı ödəməklə yanaşı, yeni iş yerlərinin açılmasına da əlverişli şərait yaradıb, 12 nəfər daimi işlə təmin olunub.

Bu istiqamətdə işlər uğurla davam etdirilib, "Gəmiqaya Beton Məmulatları" Məhdud Məsuliyyətli Cəmiyyətində fəaliyyət göstərən Beton Zavodunun istehsal gücünün artırılması məqsədilə yeni layihə həyata keçirilib. Türkiyə Respublikasından istehsal gücü saatda 100 kubmetr olan müasir texnoloji avandanlıqlar alınıb gətirilərək quraşdırılıb. İstehsal prosesi konveyer üsulu ilə təşkil edilən müəssisədə əvvəlcə beton istehsalı üçün keyfiyyətli qum tədarük edilir. Qum-çınqıl karxanasında bir saat ərzində 50 kubmetr qum yuyularaq ələnir və çınqıl 3 növə ayrılır. Sonrakı mərhələdə isə yuyulmuş qum Beton Zavoduna daşınır. Buradakı texnoloji proseslərə kompüter vasitəsilə nəzarət olunur. Betonun hazırlanması üçün qumun, sementin və suyun həcmi kompüterlə müəyyənləşdirilir. Eyni zamanda istehsal prosesinə laboratoriyada qurulmuş kompüterlə nəzarət təmin olunub ki, burada da betonun keyfiyyət göstəriciləri barədə məlumat öz əksini tapır. Bu da, son nəticədə, keyfiyyətli beton istehsal edilməsinə, istehsal prosesinin müasir tələblərə uyğun qurulmasına, müəssisənin daha rentabelli işləməsinə əlverişli şərait yaradır. Beton məmulatları istehsalı sexində istehsal gücü saatda 35 kvadratmetr kilid daş olan avadanlıqlar quraşdırılıb. Hazırda 2 istehsal xəttinin fəaliyyət göstərdiyi sexdə müxtəlif beton məmulatları – kilid daş, dekorativ kərpic, yağış kanalı, bordür istehsal olunur.

Müəssisə istehsal etdiyi məhsulları ilə həm muxtar respublika əhalisini, həm də bütün tikinti obyektlərini təmin edə bilir. Onu da qeyd edək ki, yeraltı və yerüstü sərvətlərlə zəngin muxtar respublikamızın təbii resurslarından səmərəli istifadə məqsədilə daha bir nəhəng layihə reallaşdırılıb, 2012-ci ildə "Gəmiqaya Holdinq" Şirkətlər İttifaqı "Gəmiqaya Şirkəti" Məhdud Məsuliyyətli Cəmiyyətinin Naxçıvan Sement Zavodunun tikintisi uğurla başa çatdırılıb. Yüksək keyfiyyət göstəriciləri ilə seçilən və "Naxçıvan sement" əmtəə nişanı ilə satışa çıxarılan yerli inşaat materialı obyektlərin, ayrı-ayrı beton zavodlarının vaxtında və keyfiyyətli sementlə təmin olunmasına şərait yaradıb. Eyni zamanda istehsal olunan beton və beton məmulatlarının vaxtında və keyfiyyətlə sifarişçilərin ünvanlarına çatdırılması diqqət mərkəzində saxlanılıb, müəssisə kifayət qədər texnikalarla təmin edilib. Yəni istər xammalın müəssisəyə daşınması, istərsə də hazır məhsulun tikinti obyektlərinə çatdırılmasına hər cür şərait yaradılıb.

✍ **Kərəm HƏSƏNOV**

Blokada və intibah

# Sağlam vətəndaş, güclü dövlət, işıqlı gələcək

*Bütün dövrlərdə həmişə bir fikir insanları daim düşündürmüşdür: yaşamaq və yaşatmaq. İnsanın bu istəyi zamana hakim kəsilmişdir. Elə buna görə böyüklü-kiçikli ixtiraların anası olmuşdur Adəm övladı. Daş balta da, atomun parçalanması da, lazer şüaları da insan övladının minillik axtarışlarının, zəhmətinin, müşahidə və mühakimələrinin, bütöv halda isə sağlam olmaq və uzun ömür yaşamaq istəyinin bəhrəsidir.*

### Dünənimizin reallıqları

Ötən əsrin 60-cı illərində muxtar respublikamızda insanlara göstərilən tibbi xidmətin vəziyyətini öyrənmək məqsədilə bir neçə həkim Bakıdan ictimai təşkilatların nümayəndə heyəti ilə birlikdə Şahbuz rayonunda reydlərdə olmuşdur. Həkim Tarverdi Əsgərov reydin nəticəsi ilə bağlı dərc etdirdiyi məqalədə yazırdı:

– O dövrdə zəhmətkeşlərə göstərilən tibbi xidmətin vəziyyətini öyrənmək üçün muxtar respublikanın ucqar rayonlarından biri olan Şahbuza xoş əhval-ruhiyyə ilə getmişdik. Bir rayon sakini ilə söhbətimiz zamanı məqsədimizi bildirəndən sonra yarızarafat, yarıgerçək deyilənləri eşidəndə bir qədər təəccübləndim. Çünki həmsöhbətim ironiya qarışıq bir tərzdə bildirdi ki, burada xəstələri arxasınca gəldiyiniz səhiyyə xidməti, həkimlər, tibb işçiləri yox, təbiətimizin özü müalicə edir. Ona görə də olmayan bir xidmətin səviyyəsini yoxlamaq üçün özünüzü çox da əziyyətə salmayın.

Doğrudan da, rayonun havasında, suyunda adama xoş təsir göstərən bir möcüzə vardı sanki. Bizi rayon Mərkəzi Xəstəxanasının baş həkiminin köməkçisi müşayiət edirdi. Elə yoxlamaya da rayon Mərkəzi Xəstəxanasından başladıq. Ancaq, təqribən, özümüz də bilirdik ki, "əla", "yaxşı" olanlarla qarşılaşmayacağıq. Bəlkə, nəsə "kafi" olanlar bizi razı sala bildi, – deyə işə başladıq. Rayon mərkəzindəki xəstəxananın binasına daxil olarkən burada elə bir səliqə-sahman olmadığını gördük. Nəzərəçarpacaq qayda-qanunun yoxluğu da ilk andaca hiss olunurdu. Hər yerdə sınıq-salxaq qapı-pəncərələrin, döşəmə və tavanın, stol və stulların "təmir"dən sonrakı "gözəlliyi" "göz oxşayırdı". Xəstəlik tarixçələri ilə tanış olmaq istədik. Tapılmadı. Kabinetlərin çoxu işləmirdi. Tibb bacıları xəstələrə, əsasən, ağrıkəsici dərmanlarla yardım etdiklərini bildirirdilər ki, bunun da elə xəstəxanada olarkən özümüz şahidi olduq...

Kəndlərdəki tibb məntəqələrinin, həkim ambulatoriyalarının yerini-yatağını tapmaq, onların hansı tibbi xidmətlə məşğul olduqlarını da müəyyənləşdirmək o qədər də asan olmadı. Çünki kəndlərdəki səhiyyə müəssisələrinin yerlərini bizimlə olan həkimlərin doğru-dürüst bilmədikləri hiss olunurdu. Onlar da sanki bizim kimi ilk dəfə burada olduqlarından kimin müdir, kimin işçi olduğundan xəbərsiz idilər. Kəndlərdə ən dar ayaqda xəstələrin köməyinə çatacaq bu tibb məntəqələri yöndəmsiz daxma və zirzəmilərdə yerləşdirildiyindən burada əhaliyə göstərilən tibbi xidmətdən söhbət gedə bilməzdi. Bəzi kəndlərdə isə adı olub, özü olmayan tibb məntəqələrinin işçiləri ilə rastlaşmaq da bizə nəsib olmurdu. Elə buna görə də rayonun ən böyük kəndlərindən birinə günün günorta çağında çatmağa çalışdıq ki, bəlkə, buradakı məntəqədə bir tibb işçisi ilə rastlaşıb ürəyimizdə qalan sualların cavabını ala bilək. Tibb məntəqəsinə çatarkən burada bir neçə kənd sakininin söhbətləşdiyinin şahidi olduq. Həkim yolu gözləyən xəstələrdən biri yorğana bürünüb bir küncdə oturaraq narazı halda deyinirdi.

– Salam, ay əmi, necəsən?

– Neynirsən, həkimsən? – deyə acığını bizdən çıxan xəstə sözünə davam etdi:

– Heç lazım olan gəlib çıxmır ki, bir dava-dərman eləsin. Ağrıdan ölürəm. Necə olaram səncə? – deyə acıqla cavab verdi.

Ağsaqqalın baxışlarından anladım ki, o, bizi yoldan ötən sayır.

– Bakıdan gəlmişik ki, öyrənək görək, sizə burada necə tibbi xidmət göstərilir?


Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi

– Nə, xidmət? Ay oğul, başına dönüm, həkimi tapırıq ki, onun xidmətini də görək. Sən nədən danışırsan?

Doğru sözə nə deyəsən...

Biz rayon mərkəzindəki uşaq xəstəxanasına da baş çəkdik. Rayon Mərkəzi Xəstəxanasında gördüklərimiz kimi künc-bucaqlar natəmiz, çarpayı və şkaflar sınıq-salxaq idi. Kəskin iy və üfunət adamı hövsələdən çıxarırdı. Tibbi avadanlıqların çatışmaması və ya istismara yararsızlığı, əmək intizamının olmaması da göz önündə idi. Buranın xəstəxana olmasına adamın inanmağı belə, gəlmirdi.


Şərur Rayon Mərkəzi Xəstəxanası

Qadın məsləhətxanalarının və feldşer-mama məntəqələrinin fəaliyyəti haqqında isə danışmaq lüzumsuz idi. Burada uşaqların doğum və ölüm aktlarının qeydiyyatının başdansovdu aparıldığı bizə təqdim olunan sənədlərdən açıq-aydın görünürdü.

Şahbuzla yanaşı, həmin vaxt muxtar respublikanın başqa rayonlarında da səhiyyə xidmətinin vəziyyəti ilə tanış olduq. Ümumi mənzərə eyni idi.

Hər yerdə olduğu kimi, görünür, muxtar respublikada da hər il təmirinə külli miqdarda pul xərclənən xəstəxanalarda, səhiyyə ocaqlarında vəziyyət heç bir formada dəyişmirdi. Darısqal, yöndəmsiz xəstəxana binaları şəhər, qəsəbə və kəndlərin künc-bucağında, gözdən, könüldən iraq yerlərində tikildiyindən elə səhiyyə xidməti də yarıtmaz vəziyyətdə qalırdı.

Uzun illər öncə oxuduğum bu fikirləri beynimdə ardıcıllıqla nizama düzməyə çalışdıqca regionumuzda bugünkü səhiyyənin inkişafını nəzərlərimdə canlandırırdım. Bu inkişafın bəzi məqamları barədə bir qədər sonra söhbət açacağam. Bugünkü inkişafımızın əsasını hələ ötən əsrin 70-ci illərində qoyan ulu öndər Heydər Əliyev o vaxt muxtar respublikamızda səhiyyənin inkişafı məqsədilə də mühüm tədbirlər həyata keçirmişdir. Muxtar respublikada səhiyyə müəssisələri üçün yeni binaların tikintisinə ciddi diqqət yetirən ulu öndər Heydər Əliyevin qayğısı ilə bir çox tibb müəssisələri istifadəyə verilmişdir. Naxçıvan şəhərindəki muxtar respublika xəstəxanası, mərkəzi uşaq xəstəxanası və digər səhiyyə ocaqları o dövrün yadigarlarıdır. Ümummilli liderimiz müstəqil Azərbaycana rəhbərliyi dövründə əsası ötən əsrin 70-80-ci illərində qoyulan quruculuq siyasətini, yenidənqurmanı davam etdirmişdir. Əldə olunanlar göz önündədir. Yazımın əvvəlində ötən əsrin 70-ci illərinə qədər regionumuzda səhiyyə sahəsinin hansı vəziyyətdə olduğunu buraya gələn həkimin təəssüratları əsasında canlandırmağa çalışdım. Son illər muxtar respublikamıza qonşu ölkələrdən gələn həkimlərdən biri olan Türkiyənin Ərzurum Şəfa Xəstəxanasının həkimi Volkan Yurtmanın dediklərindən:

– Bu gün Naxçıvanda dünyanın ən inkişaf etmiş ölkələrindəki kimi müasir xəstəxanalar, səhiyyə ocaqları, diaqnostika mərkəzləri fəaliyyət göstərir ki, onların da hər biri ən yeni elmi-texniki ixtiraların bəhrəsi olan tibbi avadanlıqlarla təchiz olunmuşdur. Bu isə dərman və dərdlə dolu indiki dünyamızda burada həkimlərin öz vəzifələrini layiqincə yerinə yetirməsinə imkan verir.

Həkimliyin aliliyinə, müqəddəsliyinə nə qədər xoş söz deyilsə də, yenə azdır. Hippokrat "Aforizmlər" əsərində yazmışdır: "...Həyat qısadır, həkimlik sənətininsə yolu uzundur. İnsana bu yolu qət etməyə ömür kifayət etmir. Buna görə təbabət elminə nəsillərin sənəti deyilir". Hər bir sənət adamının dilinin lüğət tərkibi vardır. Əgər ədəbiyyatşünaslar, dilçilər, qəzet və jurnal əməkdaşları bir sözün yerini səhv salsalar, sonradan bu səhvi düzəldə bilərlər. Həkimlərin səhvi isə insanın həyatı hesabına başa gəlir. Ona görə də ağ xalat geyinən hər bir həkim xəstəsinin gözlərində ümid çırağı yandırmağı bacarmalıdır. Bu gün muxtar respublikamızda səhiyyənin ən yüksək həddə inkişafı üçün göstərilən dövlət qayğısı müqabilində həkimlər müqəddəs borclarını unutmamalıdırlar. Buna onların mənəvi haqqı yoxdur. Çünki yazımın əvvəlində ötən əsrin 70-ci illərinə qədər regionumuzda tibbi xidmətin hansı səviyyədə olduğunu və həkimlərin hansı şəraitdə fəaliyyət göstərdiklərini sözün gücü ilə qısaca da olsa, açmağa çalışdım.

### Bu günün reallıqları

Ötən 20 ildə bu sahədə görülən işlər barədə muxtar respublika Səhiyyə Nazirliyinin əməkdaşı Hüseyn Əsgərovun fikirlərini olduğu kimi oxucularımıza təqdim etmək istəyirəm:

– Son 20 ildə muxtar respublikada 244 səhiyyə ocağı tikilərək, yaxud yenidən qurularaq istifadəyə verilmişdir. Muxtar respublikada səhiyyə sahəsində görülən işlər ancaq quruculuq tədbirləri ilə yekunlaşmır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2003-cü il 27 may tarixli Sərəncamı ilə muxtar respublikanın dövlət səhiyyə müəssisələrində bütün növ pullu xidmətlər ləğv edilmişdir. Bu gün səhiyyə müəssisələrindəki kompüter tomoqraf, nüvə maqnit rezonans, mammoqrafiya, qastroskopiya, kolonoskopiya aparatları müayinə və müalicənin düzgün və səmərəli təşkilinə mühüm fayda verir.

Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində əməliyyat blokunun ən müasir tibbi avadanlıqlarla təchizatı, yüksəkixtisaslı tibbi kadrların yetişməsi artıq bir sıra mürəkkəb əməliyyatların yerli mütəxəssislər tərəfindən uğurla icra olunmasına şərait yaradır.


Naxçıvan Doğum Mərkəzi

Yüksəkixtisaslı həkim briqadalarının muxtar respublikaya dəvət olunaraq aztəminatlı ailələrdən olan xəstələrin müayinə və müalicəsinin təşkili artıq ənənə halını almışdır. Bu cür humanitar aksiyalar muxtar respublikanın rayonlarında da həyata keçirilmişdir. Mürəkkəb cərrahi əməliyyatlarda yerli həkimlərin iştirakı isə onların peşə və bacarıqlarının artırılmasına stimul verir. Belə tədbirlərin məntiqi nəticəsidir ki, artıq muxtar respublikanın yerli həkim kadrları müstəqil şəkildə xəstələr üzərində açıq ürək, angioqrafiya, ürək damarlarına stent qoyulması, laparoskopik, TUR, LOR, göz və digər mürəkkəb cərrahi əməliyyatları uğurla həyata keçirirlər.

Hazırda Naxçıvan Muxtar Respublikasında tibb müəssisələrində 734 həkim, 2 mindən çox orta tibb işçisi çalışır. Orta hesabla bu gün muxtar respublikada hər 10 min nəfərə 7 həkim, 48 orta tibb işçisi düşür. Tibb işçilərinin ixtisas səviyyəsinin artırılması məqsədilə mütəmadi tədbirlər həyata keçirilir. Təkcə ötən il 17 həkim və 3 orta tibb işçisi Türkiyə Respublikasının müxtəlif universitet və xəstəxanalarına, 2 həkim Almaniyaya, 1 həkim Avstriyaya, 12 həkim və 1 orta tibb işçisi Bakı şəhərinə göndərilmişdir.

Ötən müddətdə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin rəsmi internet saytı yaradılmış və elektron hökumət portalına qoşulmuşdur. İnternet səhifəsi vasitəsilə müxtəlif elektron xidmətlər göstərilir, nazirliyin ünvanına göndərilən onlayn müraciətlər və sorğular operativ cavablandırılır. Səhiyyə infrastrukturunun yeniləşdirilməsi istiqamətində görülən işlər sayəsində əhalinin hər bir təbəqəsinə tibbi xidmətdən istifadə imkanları yaradılıb.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanda yeni – XXI əsri simvolizə edən quruculuq, yenidənqurma işləri ilə yanaşı, səhiyyədə yeniləşməyə diqqətin artırılması sayəsində qazanılan uğurlar Hüseyn Əsgərovun fikirlərində öz əksini tapır. Sözsüz ki, son illərdə tibb ocaqlarında lazımi şəraitin yaradılması, müasir avadanlıqlar, müayinə və müalicə aparatları ilə təchizat hər bir vətəndaşa öz sağlamlığını qorumaq imkanı yaradır.


Şahbuz Rayon Mərkəzi Xəstəxanası

Yazının əvvəlində ötən əsrin 70-ci illərinə kimi və son 20 ildə muxtar respublikamızda səhiyyənin vəziyyəti barədə iki insanın fikirlərini sözün gücü ilə oxucularımıza çatdırmaq istədim. Məqsədim isə ötən 20 ildə blokada şəraitində yaşayan regionumuzda səhiyyənin necə möhtəşəm bir inkişaf yolu keçməsini canlandırmaq idi. Buna nə qədər nail oldum, onu oxucularımız deyə bilərlər.

*Atalarımız demişkən, "yüz eşitməkdənsə, bir görmək yaxşıdır". Bu sahədə qazanılan uğurların şahidi kimi 20 illik inkişafı təhlil etməyə də lüzum yoxdur. Nahaq deyilməyib ki, xəstə insanın bir, sağlam insanınsa minbir arzusu olar. Kaş ki hər kəs ömrü boyu minbir arzu ilə yaşayıb dövlətinə, millətinə və övladlarının xoşbəxt gələcəyinə öz payını verə bilsin. Bir də dahilərdən birinin fikri ilə yazımı yekunlaşdırmaq istəyirəm: "Peşə ona vurulanları xoşbəxt, əksinə, tələm-tələsik ona qurşananları isə bədbəxt edə bilər". Çalışaq ki, peşəmizin vurğununu olduğumuz işimizlə sübut olunsun.*

**Şəhla NƏBİYEVA**

# Bir ananın sevinci



***Redaksiyamıza gün ərzində onlarla zəng gəlir. Kimisi dərc olunan yazı barədə fikirlərini bildirir, kimisi qəzetlə əməkdaşlıq etmək istəyir. Amma bu dəfə başqa məqsədlə zəng vurulmuşdu. Bir xanım onun ailəsinə göstərilən dövlət qayğısına görə minnətdarlığını bildirirdi.***

Həmin ailənin üzvləri ilə görüşməyi qərara aldıq. Üz tutduq Babək rayonunun Güznüt kəndinə. Mehribanlıqla qarşılandıq. Bizə zəng edən Yeganə Qəribovanın fikirlərini olduğu kimi oxucularımıza çatdırıram:

– 1995-ci ildə ailə həyatı qurmuşam. Bir neçə il övladımız olmayıb. 1999-cu ildə oğlum dünyaya gəlib. Adını Fuad qoymuşuq. Ağır travma ilə doğulduğuna görə səhhətində ciddi problemlər var idi. Uzun illərdir ki, onu müalicə etdiririk. Amma maddi imkanımız çatmırdı ki, onu xarici dövlətlərə də aparaq. Bu arzumuz ötən il dövlətimiz tərəfindən gerçəkləşdi. Latviyaya göndərildik. Bu il isə Türkiyə Respublikasının Dənizli şəhərində yerləşən Nobel Tibb Mərkəzində olduq. Bizimlə bərabər 4 sağlamlıq imkanı məhdud olan uşaq da getmişdi. Burada övladlarımız xəstəlikləri üzrə müayinələrdən keçirildilər, müxtəlif müalicələr aldılar. Bizimlə olan valideynlərin sevincini duymaq çətin deyildi. Çünki aldıqları fizioterapiya müalicələrindən sonra övladlarımızın səhhətində xeyli irəliləyiş müşahidə edirdik. Onlar o qədər sevinirdilər ki, bunu sözlə ifadə edə bilmirəm. Elə xəstəxanada düşündüm ki, Naxçıvana qayıdan kimi qəzet və ya televiziya vasitəsilə dövlətimizə minnətdarlığımızı bildirim. Siz də sağ olun, sözümüzü yerə salmayıb gəldiniz. 24 ildir ki, Güznüt kənd həkim ambulatoriyasında tibb bacısı işləyirəm. Qeyd etməliyəm ki, Fuad müvafiq təşkilatlar tərəfindən qeydiyyata alınıb və daim diqqət əhatəsindədir. Fuad üçün fərdi reabilitasiya kartı tərtib edilib və kart üzrə müalicə prosedurları həyata keçirilir. Fuadın rəsmə marağı böyükdür. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində yaradılan bütün imkanlardan istifadə edir. Güznüt kənd tam orta məktəbinin IX sinif şagirdidir. Yeni dərs ilinə böyük əhval-ruhiyyə ilə başlayacaq. Mən valideyn kimi arzulayıram ki, o, həyatda uğurlar qazansın. Sevinirik ki, bu arzularım gerçəkləşir.

*Bəli, bir ananın sevinc hislərini oxucularımızla paylaşdıq. Bir daha əmin olduq ki, insan amilinə davamlı qayğı bu gün muxtar respublikada prioritet vəzifəyə çevrilib. Bu isə region sakinlərini ürəkdən sevindirir. Həyata keçirilən tədbirlər isə muxtar respublika sakinləri tərəfindən sabahımıza cavabdehlik hissinin ifadəsi kimi dəyərləndirilir.*

✍ **Sara ƏZİMOVA**

# Aşıqlar Ahıllar Evində konsert proqramı ilə çıxış ediblər

***Avqust ayının 10-da Naxçıvan Aşıqlar Birliyinin üzvləri Şahbuz şəhərindəki Ahıllar Evində konsert proqramı ilə çıxış ediblər.***

Konsertdən əvvəl çıxışlarda qeyd edilib ki, muxtar respublikada həyata keçirilən sosial-iqtisadi islahatlar nəticəsində ahıl və məhdud fiziki imkanlı vətəndaşlara göstərilən xidmətlərin həcmi və keyfiyyəti əhəmiyyətli dərəcədə yüksəlib, onların sağlam həyat tərzində yaşaması, maddi və mənəvi tələbatının ödənilməsi üçün hərtərəfli şərait yaradılıb. Tənha yaşayan və başqasının köməyinə ehtiyacı olan ahıllara və məhdud fiziki imkanlı şəxslərə evlərində və Ahıllar Evində sosial xidmət göstərilir. Sosial xidmətə götürülən ahıllara evlərində baş çəkilərək qayğıları ilə maraqlanılır, həkim müayinəsindən keçirilir, zəruri sosial problemləri yerindəcə həll edilir. Ahıllar Evinin sakinlərinin də rahat yaşamaları üçün dövlətimiz tərəfindən yüksək şərait yaradılıb, onlara mütəmadi tibbi və sosial reabilitasiya xidməti göstərilir. Onların asudə vaxtlarının səmərəli keçirilməsi də diqqət mərkəzində saxlanılır. Belə ki, muxtar respublikamızın görməli və tarixi yerlərinə gəzintilər təşkil olunur, əlamətdar günlərdə onların iştirakı ilə tədbirlər keçirilir.

Konsertdə Naxçıvan aşıqlarının bir-birindən maraqlı saz havaları səsləndirilib.

Sonda Ahıllar Evinin sakinləri konsertin təşkilatçılarına minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Üzgüçülük üzrə şəhər birinciliyi



Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin Üzgüçülük Mərkəzində "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında məktəblilərin yay tətilinin səmərəli təşkili məqsədilə yeniyetmələr arasında üzgüçülük üzrə Naxçıvan şəhər birinciliyi keçirilib.

Dörd yaş qrupunda 40-a yaxın idmançının iştirak etdiyi birincilikdə gənc üzgüçülərin gərgin mübarizəsi diqqətdən yayınmayıb. Nəticəyə əsasən, 2001-ci il təvəllüdlü idmançılar arasında Vüqar Nəsirli, 2002-ci il təvəllüdlü idmançılar arasında Məhəmməd Abasquliyev, 2003-cü il təvəllüdlü idmançılar arasında Amil Kətanov, 2004-2006-cı illər təvəllüdlü idmançılar arasında isə Abdulla Əlisoy bütün rəqiblərini qabaqlayaraq finiş xəttinə hamıdan tez çatıblar.

Sonda hər yaş qrupunda I, II və III yerləri tutan idmançılara təşkilatçıların diplom və fəxri fərmanları təqdim edilib.

✍ **C.MƏMMƏDOV**

# Naxçıvan boksunun peşəkar məşqçisi

***İdman böyük təbliğat vasitəsidir. İdmançılar dünyanın əksər ölkələrində bir sıra peşə sahiblərindən daha çox tanınır, böyük sevgi ilə qarşılanır. Bu rəğbətin əvəzində isə onlar arenalarda azarkeşlərə əsl mübarizənin nə olduğunu nümayiş etdirməyə çalışırlar. Bütün sahələr maraqlı, çətin olduğu qədər, eyni zamanda məsuliyyətlidir: insanın bu məsuliyyəti dərk etməsi və onu sevməsi işini ikiqat çətinləşdirir. İdman sahəsində məsuliyyətli sənətlərdən biri məhz məşqçilikdir.***



Bu sahə onunla məşğul olan insandan yüksək bacarıq, dözüm, səbir, ustalıq, peşəkarlıq tələb edir. Son dövrlər dünya idmanında yaxşı məşqçi termini geniş yayılıb. Bəs yaxşı məşqçi kimdir? Cavabı qısa və sadədir: idmançılar üçün həm yaxın dost, yaxşı psixoloq, həm də arxa, kömək. Bu cür məşqçilər Naxçıvan Muxtar Respublikasında kifayət qədərdir. Belə mütəxəssislərdən biri də boks üzrə muxtar respublika yığmasının baş məşqçisi, "Tərəqqi" medallı Məmmədəli Eyvazovdur.

Baş məşqçi hər bir idmançını istedadından qabiliyyətli icraçıya, sahib olduğu ehtiyat imkanlarından tam istifadə etməyi öyrətməklə yanaşı, şüurlu olaraq ona bunu qavramağı da öyrətməlidir. Ona görə ki, hər istedad xərclənməmiş bir xəzinədir və onun açarı məşqçidir. Uzun illər peşəkar idmanla məşğul olan Məmmədəli Eyvazov da bu fikirdədir: "1972-ci ildən boksla məşğul olmağa başlamışam. İdmançı kimi Azərbaycan çempionu və mükafatçısı olmuşam. Bununla yanaşı, bir çox ölkədaxili yarışları da qalib kimi başa vurmuşam. 80-ci illərdə Rusiyanın Volqoqrad şəhərində yaşasam da, idmanı buraxmamışam və bir müddət burda karyeramı davam etdirmişəm. İdmançı kimi qazandığım uğurları məşqçilik sahəsində 90-cı illərin əvvəllərində sınaqdan keçirmişəm. Amma tam olaraq 2002-ci ildə Naxçıvan Muxtar Respublikası Boks Federasiyası yarandığı vaxtdan məşqçi kimi mütəmadi olaraq fəaliyyətimi davam etdirmişəm".

Muxtar respublikanın boks yığmasının baş məşqçisi olan Məmmədəli müəllim Azərbaycan boksuna bir çox istedadlı gənc boksçu edib: "Naxçıvanda boksun qədim tarixi var. Bu idman növünə maraq daim olub. Məşqçi kimi fəaliyyətim dövründə bir çox yetirməm ölkə çempionu olmaqla yanaşı, Azərbaycan yığmasının heyətində dünya və Avropa birinciliklərində iştirak edib, mükafatçılar sırasına düşüb. Bu müddət ərzində Naxçıvan boksu Nəimi Babayev, Aqil Qələndərov, Elvin Rüstəmov, Vüqar Kərimov, Fərid Quliyev, Telman Qafarov, Sabir və Samir Abbasov qardaşları kimi idmançılar yetişdirib. Son olaraq isə Tayfur Əliyevin qazandığı uğur bir daha sübut etdi ki, muxtar respublikada digər idman növləri ilə yanaşı, boks da hər zaman diqqət mərkəzindədir".

Məmmədəli Eyvazovun məşqçi kimi əldə etdiyi bu uğurlardan sonra ölkə Prezidenti onu "Tərəqqi" medalı ilə mükafatlandırıb. Məmmədəli müəllim birinci Avropa Oyunlarından sonra Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomuna layiq görülüb.

Məmmədəli Eyvazov "peşəkar məşqçi necə olmalıdır?" sualına bir qədər fərqli yanaşır: "Peşəkar məşqçi idmançının etdiyi hər bir hərəkətə cavabdehdir. O, öz həyatı və yaradıcılığı ilə idmançılarına nümunə olmalıdır. Məşqçi yetirməsinə peşəkar idmançı, peşəkar məşqçi və peşəkar idarəçinin nə olduğunu izah etməyi bacarmalıdır. Bununla yanaşı, o, idmançılarına döyüşməyi, işgüzarlığı ilə düşünməyi öyrətməlidir. Peşəkar olmayan məşqçi peşəkarlıqdan danışa bilməz. Və sonda peşəkar məşqçi yetirmələrinə gördüyü işə, qabiliyyətə və qazandığı bacarığın artım səviyyəsinə görə qiymət verməlidir".

Hazırda boks üzrə Naxçıvan yığmasının baş məşqçisi olan Məmmədəli Eyvazovun 25-dən çox fərdi halda çalışdırdığı boksçu var: "Naxçıvanda istedadlı gənclər kifayət qədərdir. Bizim də məqsədimiz onları üzə çıxarmaq və ölkədaxili keçirilən yarışlarda iştiraklarını təmin etməkdir. Bacarıqlı, istedadlı və gələcəkdə uğur qazana biləcək yeniyetmə və gəncləri yığmaya dəvət etmişik. Onlar arasında İbrahim Cəfərzadə, Nihad Quliyev, Əli Səfərov, Nihad Orucov kimi gənc, ölkə birinciliklərində mükafatlar qazanmış boksçular var və inanırıq ki, gələcəkdə bu idmançılarımız Avropa və dünya çempionatlarında Naxçıvanı layiqincə təmsil edəcəklər".

"Boksun inkişafı üçün mütəmadi olaraq yarışlar təşkil etməli lazımdır ki, boksçuların təcrübəsi artsın. Bu tipli yarışların keçirilməsi üçün şərait yaradılıb və biz məşqçilər bundan yararlanmağa çalışırıq. Keçirilən yarış və turnirlərdə istedadlı gəncləri yığmaya dəvət edirik və onlarla fərdi olaraq məşq aparırıq. Gələcəkdə bu gənclər Naxçıvan boksunun layiqli təmsilçiləri olacaqlar", – deyən Məmmədəli Eyvazov sonda yaradılan şəraitə görə muxtar respublika rəhbərinə, Boks Federasiyasına və Gənclər və İdman Nazirliyinə minnətdarlığını bildirdi.

✍ **Ceyhun MƏMMƏDOV**

# İşaxtaran vətəndaşların nəzərinə!

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti Naxçıvan Regional Peşə Tədris Mərkəzində Qadın bərbəri, Bərbər və Dərzi peşələri üzrə kurs təşkil edir. Tədrisin müddəti Qadın bərbəri və Bərbər kursunda 2, Dərzi kursunda isə 3 aydır. Muxtar respublikanın rayonları üzrə tələbat aşağıdakı kimidir:

| S/№ | Kəndin adı | Vakant yer | | |
|---|---|---|---|---|
| | | Qadın bərbəri | Bərbər | Dərzi |
| **Naxçıvan şəhəri üzrə** | | | | |
| 1. | Qaraçuq | 1 | - | - |
| **Cəmi:** | | **1** | **-** | **-** |
| **Şərur rayonu üzrə** | | | | |
| 1. | Muğancıq-Mehrab | 1 | 1 | - |
| 2. | Qarxun | 1 | - | 1 |
| 3. | Yuxarı Aralıq | - | 1 | 1 |
| 4. | Püsyan | 2 | 2 | - |
| 5. | Xanlıqlar | 1 | 2 | 1 |
| 6. | Aşağı Daşarx | 1 | - | - |
| 7. | Danyeri | 1 | - | - |
| 8. | Çomaxtur | 1 | - | - |
| 9. | Diyadin | 1 | 1 | - |
| 10. | Axura | 1 | - | - |
| 11. | Aşağı Yaycı | 1 | - | 1 |
| 12. | Şahbulaq | - | 1 | - |
| 13. | Mahmudkənd | 1 | - | - |
| 14. | Zeyvə | 1 | 1 | 1 |
| 15. | Dəmirçi | 1 | - | - |
| 16. | Cəlilkənd | 1 | 1 | 1 |
| 17. | Qorçulu | 1 | - | - |
| 18. | Yengicə | 2 | - | - |
| 19. | Siyaqut | 1 | - | 1 |
| 20. | Yuxarı Daşarx | 1 | 1 | - |
| **Cəmi:** | | **20** | **11** | **7** |
| **Babək rayonu üzrə** | | | | |
| 1. | Şıxmahmud | 1 | - | 1 |
| 2. | Didivar | 1 | - | - |
| 3. | Cəhri | - | - | 1 |
| 4. | Güznüt | 1 | 1 | - |
| 5. | Qahab | 2 | 1 | - |
| **Cəmi:** | | **5** | **2** | **2** |
| **Ordubad rayonu üzrə** | | | | |
| 1. | Nəsirvaz | 1 | 1 | - |
| 2. | Nürgüt | 1 | - | - |
| 3. | Xurs | 1 | 1 | - |
| 4. | Bist | 1 | 1 | - |
| 5. | Behrud | 1 | - | - |
| 6. | Parağa | - | 1 | - |
| 7. | Çənnəb | 1 | 1 | - |
| 8. | Yuxarı Əylis | 1 | - | - |
| **Cəmi:** | | **7** | **5** | |
| **Culfa rayonu üzrə** | | | | |
| 1. | Bənəniyar | 1 | - | - |
| 2. | Xanəgah | - | 1 | - |
| 3. | Milax | - | 1 | - |
| 4. | Ləkətağ | 1 | - | - |
| 5. | Teyvaz | 1 | - | - |
| **Cəmi:** | | **3** | **2** | |
| **Şahbuz rayonu üzrə** | | | | |
| 1. | Sələsüz | 1 | 1 | - |
| 2. | Badamlı | - | 1 | 1 |
| 3. | Keçili | 1 | - | - |
| 4. | Nursu | 1 | 1 | - |
| 5. | Aşağı Qışlaq | 1 | 1 | - |
| 6. | Kolanı | - | 1 | 1 |
| 7. | Ayrınc | - | 1 | - |
| 8. | Kükü | 1 | - | - |
| 9. | Güney Qışlaq | 1 | - | - |
| 10. | Qızıl Qışlaq | 1 | 1 | - |
| 11. | Gömür | 1 | - | - |
| 12. | Biçənək | - | 1 | 1 |
| **Cəmi:** | | **8** | **8** | **3** |
| **Kəngərli rayonu üzrə** | | | | |
| 1. | Qarabağlar | - | 1 | - |
| 2. | Çalxanqala | - | - | 1 |
| 3. | Təzəkənd | - | 1 | - |
| 4. | Xok | 1 | 2 | - |
| 5. | Qabıllı | 1 | - | - |
| 6. | Şahtaxtı | 2 | 1 | 1 |
| 7. | Yeni Kərki | 1 | - | - |
| **Cəmi:** | | **5** | **5** | **2** |

Əqli və fiziki potensialları Qadın bərbəri, Bərbər və Dərzi peşələri üzrə çalışmağa uyğun olan sağlamlıq imkanları məhdud şəxslər də müraciət edə bilərlər.

Kursu müvəffəqiyyətlə bitirənlər qeyd olunan kəndlərdə fəaliyyət göstərən xidmət mərkəzindəki qadın gözəllik salonu, bərbərxana və dərzi sexində işlə təmin olunacaqlar.

Peşə hazırlığı kursunda iştirak etmək istəyənlər 2015-ci il sentyabr ayının 15-dək tələb olunan aşağıdakı sənədləri yaşadıqları ərazi üzrə məşğulluq mərkəzlərinə təqdim edə bilərlər:

*1. Yaşayış yerindən arayış*
*2. Şəxsiyyət vəsiqəsinin surəti*
*3. Tibbi yoxlama haqqında arayış*

***Əlaqə telefonu: 545-32-33***

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 608